Heydər Əliyev - xalq birliyi əbədidir!

# AĞSTAFA



*“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.*
Heydər Əliyev

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 21-22 (1500) | 05 - 15 dekabr 2021-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 18 il keçir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

* * *

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. İntibah, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, müstəqilliyimizin dönməz xarakter alması bu dövrün əsas mahiyyətini təşkil edir.

Ümummilli Liderin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir hakimiyyət sahibi etməyib. Meydana silahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: “Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun”.

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı.

Ulu Öndərin anım günündə bu dahi şəxsiyyətin xilaskarlıq missiyası xüsusi minnətdarlıqla xatırlanır. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş xalq ötüb keçənləri unutmayıb və xilasına görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə bəslənən tükənməz sevgi və ehtiramdan xəbər verir.



## Prezident İlham Əliyev "Qarabağ" futbol klubunun üzvlərini qəbul edib

Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn "Qarabağ" futbol klubunun üzvlərini qəbul edib.

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Əziz dostlar.

Əziz “Qarabağ” futbol klubunun nümayəndələri.

Sizi əldə edilmiş yeni nailiyyət münasibətilə ürəkdən təbrik edirəm. “Qarabağ” futbol klubu Azərbaycan azarkeşlərini, deyə bilərəm ki, bütün Azərbaycan xalqını bir daha sevindirib.

Bu qələbə bir daha onu göstərir ki, “Qarabağ” futbol klubu Azərbaycan futbolunun flaqman komandasıdır. Bu, birinci dəfə deyil ki, “Qarabağ” beynəlxalq yarışlarda böyük uğurlar qazanır, xalqımızı, ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir. Bu uğurlar təsadüfi deyil. Çünki bilirəm ki, klub rəhbərliyi, məşqçi heyəti, futbolçular həm yüksək məsuliyyət, peşəkarlıq göstərirlər, eyni zamanda, müntəzəm olaraq peşəkarlığı artırmaq, daha da yaxşı nailiyyətlər əldə etmək üçün yorulmadan çalışırlar.

**“Qarabağ” futbol klubunun prezidenti Tahir Gözəl dedi:**

- Cənab Prezident, “Qarabağ” futbol klubu daha əvvəlki illərdə Sizin də qeyd etdiyiniz kimi, Qarabağdan olan köçkünlərimizin nidasını, Vətən həsrətini, torpağa haqlı tələbimizi Avropaya çatdırmaq, dünyaya çatdırmaq missiyasını öz üzərinə götürmüşdü və bu məsuliyyətlə böyük uğurlar qazandı. Amma bu il, cənab Prezident, çox fərqli bir ildir. Bu il Sizin çox möhtəşəm liderliyinizlə, fövqəladə cəsarətinizlə, Azərbaycan xalqının şücaəti, şəhidlərimizin müqəddəs fədakarlığı ilə möhtəşəm bir Qələbə qazanmış azad Qarabağı təmsil edən bir klub olaraq biz meydana çıxdıq. Cənab Prezident, çox zülm gördük, ədalətsizlik gördük, bir dəfə yox, bir neçə dəfə. Doğrudan da, bunu ağıla, fikrə gətirmək mümkün deyil ki, bu standartlarda necə oyun təşkil olunur və səs də çıxmır. Amma icazə verin, deyim ki, bizim mənəvi gücümüz Sizdən gəlir cənab Prezident, xalqımızdan gəlir “Qarabağ”a. Bizim öz daxili aləmimizdəki paklığımızdan gəlir, cənab Prezident. Biz heç vaxt unutmuruq ki, mədəniyyət mərkəzimiz Şuşada Ulu Öndərimizin “Şuşa mütləq bir gün bizim olacaq” sözlərindən sonra Sizin emosiyalarınıza, sevinc göz yaşlarınıza qoşulduq. Cənab Prezident, Siz məğrur duruşunuzla bizə ilham oldunuz və Allaha şükür, bu günlərə gəldik.

Cənab Prezident, biz birinci dəfə Sizinlə görüşəndə heç də qələbə qazanmamışdıq. Siz o gün bizə dediniz ki, mən sizi qalib sayıram, heç vaxt ruhdan düşməyin, davam edin. Dünyada elə bir klub yoxdur ki, üç dəfə rəhbərin qəbulunda olsun. Sizin bu mənəvi dəstəyinizdən sonra bizim öhdəmizə ancaq və ancaq uğur qazanmaq düşürdü və biz bunu yerinə yetirdik. Mən Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Allah Sizi qorusun, bizlərə çox görməsin. Bizlərə, xalqımıza olan diqqət və qayğınız daimi olsun, cənab Prezident. Çox sağ olun, Sizə çox təşəkkür edirəm.

**“Qarabağ” klubunun baş məşqçisi Qurban Qurbanov dedi:**

- Cənab Prezident, Sizi bütün məşqçilərimiz, bütün futbolçularımız adından bir daha salamlayıram və yenidən Sizin qəbulunuzda olmaq bizim üçün çox xoşdur. Mən çox istəyirdim ki, Sizi 44 günlük müharibədəki şanlı Zəfərimizdən sonra üzbəüz təbrik edim. Sizə bütün futbolçularımız adından, öz ailəm adından təşəkkür edirəm. Bu Qələbə xalqımızın gücünü göstərdi. İndiyədək nə qədər bizim güclü, bacarıqlı övladlarımız olmuşdursa, bundan sonra düşünürəm ki, onların sayı qat-qat çox olacaq. Əlbəttə, bizim hər dəfə bu qalibiyyətlərimizə belə dəyər verdiyiniz və bizə güc-qüvvət verdiyiniz üçün Sizə təşəkkür edirəm. İnanın, biz həmişə düşünmüşük ki, azarkeşlər üçün futbol oynayırıq, xalqımız, ölkəmiz üçün futbol oynayırıq. Həmişə çalışmışıq ki, özümüzü düzgün, doğru idarə edək, ən başlıcası, oyunda nizamlı, intizamlı aparaq. Hər dəfə də görəndə ki, Siz uğurlarımıza, bizim davranışımıza bu cür dəyər verirsiniz, inanın ki, məsuliyyətimiz, istəyimiz, gücümüz daha da çoxalır. Mən həmişə Sizin fikirlərinizi, bizə necə dəyər verdiyinizi futbolçulara çatdırıram. İnanın ki, bununla biz daha da inamlı oluruq. Son oyunda hakimin səhvindən sonra, elə orada mən öz müsahibəmdə bildirdim ki, bizə qarşı böyük bir ədalətsizlik olub. Amma bu, bizə daha da güc verir və bizi daha da ruhlandırır. Onların qarşısında da bunu söylədim. Biz bu cür ədalətsizlikləri dəfələrlə görmüşük. Ancaq öz istəyimizlə, xarakterimizlə, birliyimizlə bundan sonra da belə daha inamlı və daha da ürəkli olmağa çalışacağıq. Həqiqətən bizim üçün çox xoş oldu. Çox sağ olun ki, bir daha bizi qəbul etdiniz və belə dəyər verdiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Biz futbolçu olaraq, “Qarabağ” klubu olaraq həmişə Sizin yanınızdayıq. Təşəkkür edirəm.



## Prezident İlham Əliyev Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Belçikaya işgüzar səfərə gəlib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün dekabrın 13-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlib.

Avropada yaşayan azərbaycanlılar Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevi Brüsseldə qarşılamağa çıxıblar. Onlar əllərində fransız və ingilis dillərində “Cənab Prezident, xoş gəlmisiniz!”, “Avropa azərbaycanlıları Sizi salamlayır!”, “Azərbaycan ümumi dəyərlərə hörmət edir!” sözləri yazılmış plakatlar, eyni zamanda, Azərbaycanın və Avropa İttifaqının bayraqlarını tutublar.

## Prezident İlham Əliyev “TOTAL Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də “TOTAL Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Arnaud Breuillacı qəbul edib.

Görüşdə Arnaud Breuillacın fəaliyyətinin başa çatması qeyd edildi. Dövlətimizin başçısı onun ölkəmizlə TOTAL şirkəti arasında əməkdaşlığa töhfə verdiyini vurğuladı.

Arnaud Breuillac fəaliyyətinə verilən qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Söhbət zamanı təxminən bir ildən sonra Abşeron yatağında hasil olunacaq birinci qazın ölkəmizdə sənayenin inkişafı və əhalinin artımı ilə bağlı qaza olan daxili tələbatın ödənilməsi, ixrac potensialının artırılması və yeni bazarlara çıxışın əldə edilməsi, Avropanın enerji təhlükəsizliyinin təmin olunması işinə xidmət edəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə ölkəmizlə TOTAL şirkəti arasında əlaqələr, o cümlədən bərpaolunan enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Ümummilli lider Heydər Əliyevin anım günü keçirildi



Dekabr ayının 12-də ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin anım günü qeyd olundu.

Heydər Əliyev 1923-cü ildə anadan olmuş, Naxçıvan Pedaqoji texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitunun Memarlıq fakültəsinə daxil olmuşdur. O, 1941-1944-cü illərdə Naxçıvan Muxtar Respublikasında müxtəlif vəzifələrdə işləmişdir. Sonralar Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində çalışmış, 1967-ci ildə Azərbaycann SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində işləmiş və həmin ildə ona general-mayor rütbəsi verilmişdir. 1969-cu ildə isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumunda Respublikanın Birinci Katibi seçilmişdir.

Ulu Öndər 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olmuş, 1974-1979-cu illərdə isə SSRİ Ali Sovetinin sədr müavini vəzifəsində işləmişdir. O, həmin vəzifələrdə işləyərkən SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etmişdir. 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixayil Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının





Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edən Heydər Əliyev Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir.

Heydər Əliyev 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilmişdir. Sonralar Azərbaycan Respublikası Ali Sovetinin sədri və 1993-cü ilin iyun ayında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır.

Ulu öndər Heydər Əliyev nadir şəxsiyyət, əsl lider, dünyada sayılıb-seçilən görkəmli siyasətçi idi. Məhz Heydər Əliyevin fəaliyyəti sayəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlayıb. "Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı xidmətlərini sadalamaqla tükənməz. Heydər Əliyev sözün əsl mənasında, vətənin böyük oğlu, xalqın lideri, bənzərsiz dövlət xadimi idi. Sağlığında millətinin atası olmağı bacardı, xalqın sevgisini qazandı və müasir Azəbaycanın yaradıcısı, qurucusu oldu. Ulu öndərin siyasi xətti bu gün də dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir".



Ağstafada Ulu Öndərin anım gününə həsr olunmuş əzəmətli tədbir keçirildi. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, ictimaiyyət nümayəndələri Heydər Əliyev Mərkəzinin önündə Ulu öndərin əzəmətli abidəsini ziyarət etdi və abidə önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildirdilər.

Tədbir iştirakçıları Ulu Öndərin abidəsi önünə tər çiçək dəstələri düzdükdən sonra onun adını daşıyan Mərkəzi də ziyarət etdilər və dahi şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən eksponatlarla tanış oldular.

# "Ağstafa" qəzetinin 30 yaşı tamam oldu

1990-cı ildə Ağstafanın Qazax rayonundan ayrılması barədə fərman imzalandıqdan bir qədər sonra 1991-ci ildə "Ağstafa" qəzeti təsis olundu. Həmin vaxtdan düz 30 il keçir. Bu müddət tarix üçün elə bir böyük vaxt olmasa da "Ağstafa" qəzetinin əməkdaşları üçün heç də az vaxt deyil.

Bəli, düz 30 ildir ki, heç bir fasilə vermədən "Ağstafa" qəzetini nəşr etmiş, yaşatmışıq . Bu illər ərzində bir çox çətinliklərlə üzbəüz dayansaq da vəzifəmizi şərəflə yerinə yetirmiş, rayonumuzun iqtisadi, sosial, mədəni həyatında baş verən yenilikləri oxuculara çatdırmış, nöqsan və çatışmazlıqlar barədə fikirlərimizi qəzetdə nəşr etmişik. İlk illər qəzetimiz dövlət tərəfindən maliyyələşəndə heç bir çətinliyimiz olmamış, Tovuz, Şəmkir rayonlarındakı, Gəncə şəhərindəki nəşriyyatlarda qəzetimizi çap etdirmişik. Lakin sonralar qəzetimizin maliyyələşməsində dəyişiklik olmuş, təsərrüfat hesabına keçmiş, qəzetə yazılan abunə hesabına iş fəaliyyətimizi davam etdirmişik. Elə bu gün də həmin qaydada işləyir və "Ağstafa"nı yaşadırıq.

Ötən dövrdə "Ağstafa" qəzetinin 1500 nömrəsi nəşr olunmuş, oxuculara çatdırılmışdır. Hər dəfə abunəçilər və oxucularla görüşüb söhbət edəndə bizə məlum olmuşdu ki, əməkdaşlarımız onlara tapşırılan işi, üzərlərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirirlər. Ötən dövrdə jurnalistlərimizin fəaliyyəti rayon rəhbərliyinin diqqət mərkəzində olmuş, peşə bayramları günlərində, eləcə də bir sıra tarixi günlərdə əməyimizə yüksək qiymət verilmişdi. Biz çalışmışıq ki, əməkdaşlarımıza göstərilən etimadı həmişə doğruldaq, üzərimizə düşən vəzifəni ləyaqətlə yerinə yetirək.

İkinci Qarabağ müharibəsində qazanılan böyük qələbə, doğma Qarabağımızın 30 ildən sonra işğaldan azad olunması hamı kimi biz jurnalistləri də ürəkdən sevindirdi. Yaxşı bilirik ki, bu böyük qələbə prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin vətənə olan məhəbbəti, müdrikliyi və əsl qəhrəmanlığı nəticəsində əldə olundu. Mən bu böyük qələbəyə görə möhtərəm prezidentimizə dərin minnətdarlığımı bildirir, ona xoşbəxtlik, can sağlığı arzulayıram. Allah Ali Baş Komandanımızı xalqımızın başı üstündən əskik etməsin. Nə qədər ki, o var Azərbaycan dünyaya günəş kimi doğacaq, qüdrətlənəcək, dünyanın ən sürətlə inkişaf edən, məğlubedilməz qəhrəman bir dövləti kimi tanınacaqdır.

Bir neçə gündən sonra yurdumuza yeni il qədəm qoyacaqdır. Qarşıdan gələn yeni ildə bizləri daha xoş əlamətdar günlər gözləyir. Mən fürsətdən istifadə edib səbirsizliklə gözlədiyimiz 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə oxucularımızı, bütün ağstafalıları ürəkdən təbrik edir, hamıya xoşbəxtlik arzulayıram.

Əziz ağstafalılar, qarşıdan gələn yeni iliniz mübarək!

***İbrahim Əliyev,***
***"Ağstafa" qəzetinin***
***baş redaktoru***

# Nihad Adil oğlu Abdullayevin əziz xatirəsi ehtiramla anıldı



Nihad Abdullayev Ağstafa şəhərində anadan olub. O, Vətən müharibəsi başlayan zaman Azərbaycan Silahlı Qüvvələri sıralarında əsgər kimi vətəndaşlıq borcunu şərəflə yerinə yetirdi. İşğal altında olan torpaqlarımızın azadlığı uğrunda başlanan 44 günlük Vətən müharibəsində Füzuli və Xocəvəndin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə sucaət göstərdi. Rayonun Şəhidlər Xiyabanında dəfn olunan igid əsgərimiz "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundu.

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov qəhrəman şəhidin xatirəsini yad etmək üçün bu günlər onun ailəsi ilə görüşmüş, səmimi söhbət etmişdir. Görüşdə Nihad Abdullayevin ailəsi onun döyüş yolu barədə qonaqlara ətraflı məlumat vermiş, övladlarının vətənin azadlığı uğrunda gedın döyüşlərdə şəhid olması ilə fəxr etdiklərini bildirmişlər.

# "Abad həyət" layihəsinin icrası davam etdirilir



Ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq Ağstafa rayonunda həyata keçirilən abadlıq və quruculuq işləri davam etdirilir. Bu istiqamətdə aparılan işlər çərçivəsində 2020-ci ildən başlayaraq, RİH tərəfindən Ağstafa şəhərində yerləşən çoxmənzilli yaşayış binaların sakinlərinin mənalı istirahətləri, asudə vaxtlarının səmərəli təşkili və uşaqların əylənməsi üçün "Abad həyət" layihəsinin icrasına başlanılmışdır. Abadlaşdırılıan növbəti həyət, Ağstafa şəhəri, Ş.Qurbanov küçəsi, 23 və 24 nömrəli 5 mərtəbəli yaşayış binalarının həyəti oldu.

Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov bir sıra məsul şəxslərlə birlikdə həyətdə abadlaşdırma işləri ilə yaxından tanış olmuşdur. İcra başçısı görülən işlərin daha keyfiyyətli olması üçün aidiyyəti üzrə tapşırıqlar vermişdir. Hazırda həyətdə abadlaşdırma işləri davam etdirilir.

# Turan Məmmədlinin şəhadətə ucalmasının birinci ildönümü qeyd olundu



Göycəli kəndindən olan Vətən müharibəsi şəhidimiz Turan Raqif oğlu Məmmədlinin şəhadətə ucalmasının birinci ildönümü qeyd olundu.

Anım günündə şəhidimizin ailəsi ziyarət olundu və onun əziz xatirəsi ehtiramla yad edildi.

Turan Məmmədli 07.12.1993-cü ildə Göycəli kəndində anadan olub. O, Azərbaycan Silahlı Qüvvələrinin giziri kimi Vətən müharibəsində Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən şiddətli döyüşlərdə sücaət göstərib. Doğma kəndində torpağa tapşırılan şəhidimiz "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

# Biz həmişə onlara dəstək oluruq






Artıq bir ildən çoxdur ki, bizim rayonumuzda da Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin rayon filialı fəaliyyət göstərir. Biz bu birliyin yarandığı ilk gündən çalışmışıq ki, üzərimizə düşən vəzifəni ləyaqətlə yerinə yetirək, şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına yardım göstərək, onlara dəstək olaq. Bu məqsədlə birliyin üzvləri ilə ilə birlikdə müntəzəm olaraq yerlərdə olur, şəhid ailələri, qazilər, əlillərlə və veteranlarla görüşüb söhbət edir, onların problemləri ilə maraqlanır və imkanımız daxilində yardımlar göstəririk.



Bu gün rayonumuzda 219 şəhid ailəsi, 186 qazi, 1840 nəfər müharibə veteranı vardır. Təkcə bu il təşkilatımız tərəfindən üç nəfər əlilə əlil arabası, bir nəfər Qarabağ qazisinə hasa vermişik.

Qurban bayramı günü şəhid ailələrini, qaziləri, veteranları yad etmiş, 81 ailəyə qurban payı göndərmişik. Bu gün böyük qürur hissi ilə demək olar ki, rayonumuzun bütün təşkilatlarında şəhidlərin xatirəsini əbədiləşdirmək üçün hər cür tədbirlər görülür, bulaqlar inşa olunur, xatirə lövhələri, muzeylər tikilir, küçələrə onların adları verilir. Belə bir xoşməramlı tədbiri biz də həyata keçirmiş, Hüseyn Arif küçəsində şəhid ailələrinin yaşadıqları binanın qarşısında "Şəhidlər bulağı" inşa edib istifadəyə vermişik.

Rayon rəhbərliyi tərəfindən şəhidlərin xatirəsinə həsr olunan tədbirlərdə, anım günlərində bizim birliyin üzvləri də yaxından iştirak edirlər. Yeni dərs ili başlayanda Ağstafa şəhər 1 saylı orta məktəbin həyətində şəhid Elvin İmaməliyevin xatirəsini əbədiləşdirmək üçün inşa olunan xatirə lövhəsinin açılışında ictimai birliyimizin rəhbəri Firuddin Məmmədov da iştirak etmiş və tədbir iştirakçıları qarşısında çıxış edərək respublikamızda, eləcə də bizim rayonumuzda şəhid ailələrinə göstərilən qayğıya görə möhtərəm prezidentimiz cənab İlham Əliyevə, Rayon icra hakimiyyətinin başçısı Seymur Orucova dərin minnətdarlığını bildirmişdir.

Bəli, biz bu kimi tədbirlərin keçirilməsində, şəhid ailələrinə, qazilərə, veteranlara, əlillərə göstərdiyimiz dəstəyi, qayğını bundan sonra da davam etdirməyi özümüzə borc bilirik.

***Ceyhun Əliyev,***
***Qarabağ Əlillərinə Qayğı, İctimai Birliyinin rayon filialının rəhbəri***

# Həsənsu kəndində inşa edilən 420 şagird yerlik yeni məktəb binasında işlər yekunlaşdı



Ümumtəhsil müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi, yeni, müasir tipli məktəb binalarının inşa edilməsi istiqamətində aparılan işlər rayonda uğurla davam etdirilir. Son illər rayonun əksər kəndlərində yeni məktəb binaları inşa olunmuş, şagirdlərin təlim-tərbiyəsinin yüksək səviyyədə təşkil edilməsi üçün hər cür şərait yaradılmışdır.

Belə ümumtəhsil məktəblərinindən biri də Heydər Əliyev fondu tərəfindən Həsənsu kəndində inşa olunmuşdur. Bu günlər məktəbin tikintisində bütün işlər tam yekunlaşdırılmışdır. Yaxın günlərdə məktəbin qapıları şagirdlərin üzünə açılacaqdır.

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov məktəbdə görülmüş işlərlə yaxından tanış olmaq üçün bu günlər məktəbdə olmuş, aparılan işləri nəzərdən keçirmişdi.

420 yerlik yeni məktəb binası 2 korpusdan ibarət olmaqla məktəbdə akt, idman, kitabxana zalları, fənn laboratoriyaları, yeməkxana, hərbi və texnologiya kabinetləri, eləcə də digər yardımçı və texniki otaqlar, həyətdə açıq tipli süni örtüklü idman meydançası yaradılmışdır. Məktəbin ərazisi dekorativ hasara alınıb, yerə brusçatka tipli döşəmə vurularaq ətraf abadlaşdırılmışdı. İcra başçısı məktəbin tikintisində görülən işlərdən tam razı qaldığını bildirmiş və əmin olduğunu bildirmişdir ki, bu təhsil ocağı rayonun ən nümunəvi məktəblərindən biri olacaqdır.

# Narkomaniyaya qarşı qətiyyətli mübarizə aparılmalıdır

***Narkomaniya yunan sözü olub "narko-bihuşluq, maniya-asılılıq" deməkdir. Narkomaniya cəmiyyətin meydana gəldiyi, onun ayrı-ayrı siniflərə, sosial təbəqə və qruplara bölündüyü qədim zamanlardan yaranmışdır. Uzun illərin araşdırmaları göstərir ki, narkomanlıq insanı həqiqətən də fiziki və ruhi cəhətdən şikəst edir, onun ömrünü qısaldır. Bu gün narkomaniya bütün dünyada həyəcan doğuran bir reallıq kimi tanınır. Bu isə o deməkdir ki, belə bir reallıqla kimliyindən asılı olmayaraq hamı mübarizə aparmalı, öz əlindən gələn köməyi göstərməlidir.***

***Ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da son vaxtlar narkomaniyaya qarşı mübarizə daha da gücləndirilmiş, bu istiqamətdə məqsədyönlü tədbirlərin keçirilməsinə diqqət xeyli artırılmışdır.***





Bu günlər Rayon polis şöbəsinin və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Ağstafa şəhər 1 saylı orta məktəbində keçirilən tədbir məhz bu mövzuya həsr olunmuşdur. Tədbiri giriş sözü ilə məktəbin direktoru Ramiz Nəsirov açmış və məruzə üçün sözü Rayon polis şöbəsinin rəisi Vüqar Xəlilova vermişdir. V. Xəlilov tədbir iştirakçılarına "yetkinlik yaşına çatmayanlar arasında narkomaniyaya qarşı mübarizə və sağlam həyat" mövzusunda məruzə etmişdir. V. Xəlilov qeyd etmişdir ki, müasir dünyada cəmiyyəti narahat edən prolemlər içərisində ən mürəkkəbi, faciəvi nəticələrə gətirib çıxaranı narkomaniya və narkobiznesdir. Narkomaniya və narkobiznes təkcə insanların sağlamlığına, mənəviyyatına deyil, həm də dünya iqtisadiyyatına ciddi zərbə vurur. Mütəxəssislərin hesablamalarına görə, narkotiklərin qanunsuz dövriyyəsindən hər il yüz milyardlarla dollar gəlir əldə edilir. Dünyada milyonlarla, ölkəmizdə minlərlə insan bu bəladan əziyyət çəkir. Təbii ki, belə inkişaf surəti yaxın gələcəkdə ictimai faciəyə gətirib çıxara bilər. Ən acınacaqlısı da budur ki, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları yüksələn xətlə artmağa doğru gedir. Azərbaycan Respublikasında narkotizmlə və narkobizneslə mübarizənin əsası, tarixdə ilk dəfə olaraq, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 18 iyun 1999-cu il tarixli Qanunu qoyulmuşdur.

Bu gün narkomanlığa qarşı mübarizədə səmərəliliyə nail olmaq üçün aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış Dövlət Komissiyası və ölkə Prezidentinin müvafiq fərmanları ilə 2007-2012, 2013-2018 və 2019-2024-cü illəri əhatə edən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə qarşı, narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramları" təsdiq olunaraq icraya yönəldilmişdir.

Azərbaycanın geosiyasi mövqeyi narkotiklərin qeyri-qanuni olaraq Avropaya daşınması üçün də əlverişlidir. Beynəlxalq narkosindikatlar Azərbaycanın əlverişli vəziyyətindən istifadə edərək narkotik vasitələrin Müstəqil Dövlətlər Birliyi ölkələrinə və Avropaya aparılmasında tranzit əraziyə çevirməyə cəhd etmişdilər. Ötən illər ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün sahələrdə olduğu kimi, narkotiklərin ölkə ərazisində qanunsuz dövriyyəsinə də öz mənfi təsirini göstərmişdir.

Son illər respublikamızda narkotik vasitələrə və bihuşedici maddələrə qarşı mübarizə xeyli güclənmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı Qeyri-Hökumət Təşkilatları və ictimai təşkilatlar da fəallığını xeyli artırmışdılar. Müstəqil Azərbaycan Respublikası artıq iyirmi ildən çoxdur ki, beynəlxalq ictimaiyyət və aparıcı dünya dövlətləri ilə birgə bu problemin həlli yolunda ardıcıl və məqsədyönlü addımlar atır. Bu illər ərzində Azərbaycanada narkomaniyanın qarşısının alınması sahəsində müxtəlif istiqamətli işlər həyata keçirilmişdir.

Ağstafa rayonu ərazisində keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 2021-ci ilin ərzində narkotiklə bağlı 17 cinayət faktı aşkar edilmişdir. Ümumilikdə dövriyyədən 7 kiloqram 655 qram çəkidə narkotik vasitə, 119 qram çəkisdə isə psixotrop maddə çıxarılmışdır.

Respublika üzrə 33788 nəfər, Ağstafa rayonu üzrə isə 156 nəfər şəxs "narkomanlıq" diaqnozu ilə qeydiyyatdadırlar.

2021-ci ilin 10 ayı ərzində Respublika üzrə 7463 nəfər şəxs barəsində cinayət işi başlanaraq məsuliyyətə cəlb olunmuş, ümumilikdə dövriyyədən 5880 kiloqram narkotik vasitə və psixotrop maddə aşkar olunaraq çıxarılmışdır.

Narkomaniyaya qarşı mübarizə sahəsində işin səmərəliliyinin artırılması məqsədi ilə 802 qaynar xətti istifadəyə verilmişdir. Narkomaniya xəstəliyindən əziyyət çəkən şəxslər üçün reabilitasiya mərkəzləri fəaliyyət göstərir.

Narkomaniya ilə mübarizədə şübhəsiz ki, biz hüquq-mühafizə orqanları əməkdaşlarının üzərinə çox vacib və məsuliyyətli vəzifələr düşür. Ağstafa rayon polis şöbəsi və Köçvəlili polis bölməsi öz işlərini bu istiqamətdə qurmağa çalışmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısını almaq, bu vasitələrin qəbuluna aludə olmuş şəxslərin dairəsini müəyyən edərək onlara qarşı cinayət təqibi və profilaktiki tədbirlər həyata keçirir.

Məruzə geniş müzakirə olunmuş və çıxış edənlər narkomaniyaya qarşı mübarizə aparılmasına öz münasibətlərini bildirmişlər. Rayon təhsil şöbəsinin müdiri Mədəd Zeynalov çıxış edərək qeyd etmişdir ki, ictimaiyyət üçün böyük bəla olan narkomaniya hər bir kəsi ciddi narahat etməlidir. Yetkinlik yaşına çatmayanlar üçün daha qorxulu olan narkomaniyaya qarşı mübarizə aparılmasında biz təhsil işçilərinin də üzərinə böyük vəzifələr düşür. Çünki orta məktəbdə işləyən müəllimlər gənclərlə, yeniyetmələrlə daha çox təmasda olan şəxslərdir. Biz bu məsuliyyəti dərindən dərk edir və orta məktəblərdə tez-tez təbliğat, təşviqat işləri aparırıq. Gənc nəslin sağlamlığını qorumaq, onların "ağ ölümlə" üzləşməmələri üçün bu kimi tədbirləri bundan sonra da davam etdirəcəyik.

Tədbirdə iştirak edən Rayon mərkəzi xəstəxanasının həkimi İlqar Niyazov çıxış etdi və göstərdi ki, narkomaniya elə bir xəstəlikdir ki, bu xəstəliyə yoluxanların müalicə olunması çox çətin bir işdir. Odur ki, biz hamımız çalışmalıyıq ki, vətəndaşlar, xüsusilə gənclər bu bəlaya meyl göstərməsin və xəstəliyə yoluxmasınlar. Hər bir vətəndaş bunu dərindən dərk etməlidir ki, narkomaniyaya yoluxmaq şikəst olmaq deməkdir.

Tədbirin sonunda narkomaniyanın törətdiyi fəsadları əks etdirən film nümayiş etdirildi və bununla da tədbir yekunlaşdı.

***İbrahim Əliyev***

# Köçəsgərin dünəni və bu günü



Köçəsgər kəndi rayonun ən iri yaşayış məntəqələrindən biridir. Kənddə 1475 təsərrüfat olmaqla, 6300-ə yaxın əhali yaşayır. Kənd sakinlərinin əsas məşğulluğu əkinçilik və heyvandarlıqdır. Kənddə iki orta məktəb, 2 uşaq bağçası, 1 klub, 1 kitabxana, 1 tibb məntəqəsi fəaliyyət göstərir. 1 ildən çoxdur ki, bu inzibati ərazi dairəsinə rəhbərlik etmək Şükran Hacıyevə tapşırılmışdır.

Şükran Hacıyev 1970-ci ildə Köçəsgər kəndində anadan olmuş, 1987-ci ildə əmək fəaliyyətinə başlamış və 1996-cı ildə Bakı İnşaat Mühəndisləri İnstitutunu bitirdikdən sonra Rayon Gənclər və İdman İdarəsində əmək fəaliyyətini davam etdirmişdir. 2000-ci ildə ona yüksək etimad göstərilmiş və Yeni Azərbaycan Partiyasının Ağstafa rayon təşkilatında məsul vəzifəyə irəli çəkilmişdir.

Bu gün Köçəsgər kəndində görülən işlər, vətəndaşlara göstərilən qayğı hamının diqqətini cəlb edir. Görülən işlər, qarşıda duran vəzifələr barədə oxuculara daha ətraflı məlumat vermək məqsədilə bu günlər Şükran Hacıyevlə görüşdük və ondan müsahibə götürdük. O dedi:

- Mən ilk öncə məni bu məsul vəzifəyə təyin etdiyinə görə Rayon icra hakimiyyətinin başçısı Seymur Orucova minnətdarlığımı bildirir və ilk gündən çalışıram ki, mənə göstərilən etimadı layiqincə doğruldum.

Köçəsgər mənim üçün ən doğma bir məkandır. Çünki mən bu kənddə doğulmuşam, böyümüşəm və hamını yaxşı tanıyıram. Mən də Qarabağ müharibəsi veteranıyam. Uzun illər idi ki, biz doğma Qarabağın işğaldan azad olması arzusu ilə yaşayırdıq. Nəhayət ki, möhtərəm prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əsl qəhrəmanlığı, müdrik siyasəti nəticəsində bu həsrətə son qoyuldu. 44 gün davam edən müharibədə Azərbaycan əsgərləri erməni ordusunu darmadağın etdi və torpaqlarımız işğaldan azad olundu. Bu döyüşlərdə kəndimizin igid oğulları da vətən qarşısında öz borclarını layiqincə yerinə yetirdi, əsl şücaət göstərdi, onlara verilən tapşırıqları şərəflə yerinə yetirdilər. Birinci və İkinci Qarabağ müharibəsində kəndimizdən 11 nəfər şəhid oldu, 12 nəfər yaralanaraq qazi adını qazandı. Kənd camaatı onların adlarını əbədiləşdirmək üçün kəndimizin mərkəzində xatirə abidəsi inşa etdi. Rusiyada yaşayan soydaşlarımız bu işdə əsl vətənpərvərlik göstərdi, öz şəxsi vəsaitləri hesabına həmin xatirə abidəsinin tikintisində iştirak etdilər. Onlar bu gün də şəhid ailələrinə, qazilərə yardım göstərir, kəndarası yolların təmir edilməsində, abadlaşmasında küçələrin işıqlanmasında köməklik göstərirlər. Mən onlardan Ulduz Misirovun, Nuru İsmayılovun, Rəşad Babayevin, Mircəlal Cabbarovun, Kamal Babayevin, Vaqif Cabbarovun, Mahir Xanəhmədovun, Etibar Məmmədovun, Yenər Məmmədovun, Bakı şəhərində yaşayan Ceyhun Məmmədovun adlarını iftixarla çəkir, kənd ictimaiyyəti adından, öz adımdan minnətdarlığımı bildirirəm.




Kəndimizdə olan problemlər heç vaxt rayon rəhbərliyinin diqqətindən kənarda qalmamışdır. İcra başçısı cənab Seymur Orucov dəfələrlə kəndimizdə olmuş, mövcud problemlərin aradan qaldırılması üçün əməli işlər görülmüşdür. Uzun illər idi ki, kəndimizdəki içməli su problemi hamını narahat edirdi. Cənab başçımızın göstərişi və qayğısı nəticəsində bu problem aradan qaldırıldı, içməli su xətti yenidən quruldu. Kəndimizdıəki su kanalının üzərindəki su nasosu yenisi ilə əvəz olundu, Acıdərə adlanan ərazidəki təhlükəli vəziyyət aradan qaldırıldı. Bütün bunlara görə kəndimizin əhalisi adından hörmətli başçımıza çox sağ ol deyir və ona minnətdarlığımı bildirirəm. Söz yox ki, kəndimizdə mövcud olan digər problemləri də rayon rəhbərliyinin köməyi sayəsində həll edəcəyik.

Bu gün dünya ictimaiyyətini narahat edən bir problem vardır. O da "Covid-19" pandemiyasına qarşı mübarizənin aparılmasıdır. Rayonumuzun bütün yaşayış məntəqələrində olduğu kimi, bizim kənddə də bu iş uğurla həyata keçirilir, əhalinin peyvəndlənməsinin yüksək səviyyədə təşkili üçün bütün tədbirləri görür, ictimaiyyətlə profilaktiki təbliğat aparırıq. Bu vacib işi bundan sonra da uğurla davam etdirəcəyik.

***Müsahibəni qələmə aldı:***
***İbrahim Əliyev***

## Yeni təyinat

# Nicat Məhəd oğlu Vəkilova etmad göstərildi



Nicat Məhəd oğlu Vəkilov bu il dekabr ayının 1-də Ağstafa Gənclər Evi Sosial Xidmət Müəssisəsinin direktoru vəzifəsinə təyin olundu.

N.Vəkilov 1989-cu ildə anadan olmuş, 2016-cı ildə Ağstafa şəhər 1 saylı orta məktəbini bitirmişdir. O, elə həmin ildə Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və kredit fakültəsinə qəbul olmuş, 2009-2010-cu illərdə "N" saylı hərbi hissədə xidməti borcunu yerinə yetirmişdir.

N. Vəkilov 2012-ci ildə əmək fəaliyyətinə başlamış, Ağstafa Su-Tikinti İdarəsində mühasib vəzifəsində çalışmışdır. Onun iş qabiliyyəti nəzərə alınmış və 2016-cı ildə yüksək etimad göstərilərək, Ağstafa rayon İcra Hakimiyyətində Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın məsul katibi vəzifəsinə irəli çəkilmişdir. Sonralar 2018-ci ilin iyul ayından 2021-ci ilin noyabr ayına kimi 6 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin Ağstafa Təsərrüfat Qrupunun baş mühasibi vəzifəsində çalışmışdır.

N. Vəkilov Mədəniyyət naziri Fərid Qayıbovun əmri ilə Gənclər Evi Sosial Xidmət Müəssisəsinin rəhbəri vəzifəsinə irəli çəkilmişdir.

Təbrik edirik!

# Nümunəvi məktəbin qabaqcılları



Milli təhsilimizin inkişafına töhfə verən məktəblərdən söz düşəndə şəhərimizdəki 2 saylı tam orta məktəbin adı ön sırada çəkilir. Bu təhsil müəssisəsi özünə məxsus ənənəsi ilə fərqlənir. Məktəbdə bilikli və savadlı pedaqoqları var və gənc nəslin təlim-tərbiyəsi ilə müntəzəm iş aparırlar. Belə müəllimlərin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir, onların fəaliyyətinə dəyər verilir. Belələrinə Sevda Əliyevanı, Nigar Bezraşvardı, Yeganə Əfəndiyevanı, Mehriban Məmmədovanı və başqalarını misal göstərmək olar.

Məktəbin direktoru Vəfa Tağıyeva qabaqcıl müəllimlərin əməkdar müəllim və "Tərəqqi" medalına layiq olduqlarını bildirir. Uzun müddət pedaqoji kollektivə rəhbərlik edən, direktora xas olan keyfiyyətləri ilə tanınan həmsöhbətim Vəfa müəllimə verilən məlumatlara onu da əlavə etdi ki, belə müəllimlərin sırası genişlənir. Bu il tarix müəllimi Afaq Rəhimova "Tərəqqi" medalına layiq görülüb.

Söhbət açdığımız 2 saylı tam orta məktəbdə 113 müəllim çalışır. Birgə səy, birgə fəaliyyət orada təhsil alan 1146 nəfər şagirdin təlim-tərbiyəsinə yönəlmişdir. Birgə iş öz bəhrəsini verir. Nəticə hamını razı salır. Məktəb məzunlarının 34 nəfəri ali məktəblərə qəbul olunub. Bayramov Tural Vüqar oğlu, Həsənova Nigar Feyruz qızı, Cürənli Nəzrin Elnur qızı 600 balla sayılıb-seçilən ali məktəb tələbəsi adını qazanıblar.

Məktəbin qabaqcıl müəllimlərindən biri də bayaq direktorun adını çəkdiyi Afaq Rəhimovadır. Yurdumuzun tarixini şagirdlərə öyrədir. Otuz ilə yaxın bir müddətdə zəngin təcrübəyə yiyələnmişdir. Bügünkü mövzusu isə "Qarabağ Azərbaycandır". İllərlə işğal altında qalan torpaqlarımzın necə azad olunmasını, Zəfər yolunda tarixə dönmüş reallığı məntiqi ardıcıllıqla şagirdlərə izah edir. Vətən uğrunda canlarından keçən şəhidlərimiz haqqında ətraflı məlumat verir. Mənfur düşmənin Azərbaycana qarşı apardığı məkrli və ideoloji mübarizənin mahiyyətini açıb göstərir. Məğlub düşmənin bir daha baş qaldırmayacağını tarixi hadisələrlə əlaqələndirir.

Afaq müəllimə təkcə tarix fənnini tədris etməklə kifayətlənmir. O, məktəbdə keçirilən tədbirlərdə iştirak edir, öz fikrini bildirir. Gənclərin vətənpərvər ruhda böyümələrinə dair keçirilən dəyirmi masalarda, narkomaniyaya qarşı təşkil edilmiş söhbətlərdə, şair və yazıçılarla baş tutan görüşlərdə və bir çox yığıncaqlarda yanaşdığı münasibət həmişə rəğbətlənir. Məktəbdə daimi olaraq tarixi günlər, əlamətdar hadisələr vaxtaşırı qeyd edilir. Hətta belə tədbirlərin keçirilməsində onun təşkilatçılığından da istifadə olunur.

Gənc yaşlarından ictimai işlərdə səriştə qazanan müəllimə indi hər işi günün tələbi baxımından yerinə yetirir. Həm bu keyfiyyətlərinə, həm də tədris etdiyi fənni şagirdlərə sevdirdiyinə görə Respublika Təhsil Nazirliyi xeyli bundan əvvəl onu Fəxri Fərmanla təltif etmişdir. Bu il isə müəllim günü münasibətilə "Tərəqqi" medalına layiq görülmüşdür. Böyük mükafatdır. Pedaqoq zəhmətinə, yaradıcı və təşəbbüskar müəllimə verilən ən layiqli qiymətdir. Təhsil aldığı Gəncə Pedaqoji İnstitutunun Qazax filialının məzunu fəxr edir ki, bu qocaman təhsil ocağının adına layiq fəaliyyət göstərib.

***Qəhrəman Qurbanov***

# Rayonda fəaliyyət göstərən qadın sahibkarlar üçün təlim keçirildi



Ağstafa rayon Heydər Əliyev Mərkəzində Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və USAID-in təşkilatçılığı, Gənclərin İnkişafı Karyera Mərkəzinin Ağstafa nümayəndəliyinin tərəfdaşlığı və Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təlim keçirilib.

Təlimdə özünəinamın inkişafı, planlama, ünsiyyət, sahibkarlıq, sahibkarlığın əsas elementləri kimi mövzular haqda geniş məlumatlar verilib.

# "Vətən uğrunda" kitabı şəhid ailələrinə təqdim olundu



Bu günlər Ağstafa Mədəniyyət Mərkəzində şəhid ailələri ilə görüş keçirilmişdir. Görüşdə ilk olaraq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə Mədəniyyət Mərkəzinin direktoru Leyla İsayeva, Ağstafa rayon Gənclər və idman idarəsinin rəisi Əziz Məsmalıyev, Mərkəzi kitabxana sistemləri idarəsinin müdiri Solmaz Nagiyeva və şairə Gulamayıl Murad çıxışlar edərək Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin qəhrəmanlıq salnaməsindən danışdılar. Çıxış edən natiqlər 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının tarixi zəfər qələbəsinin dünyada mərdlik və qəhrəmanlıq nümunəsinə çevrildiyini bildirdilər. Qeyd olundu ki, Ali baş komandan cənab İlham Əliyevin siyasi iradəsi və Azərbaycan ordusunun qətiyyətli döyüşü nəticəsində 30 ilə yaxın bir dövrdə işğal altında olan torpaqlarımız azad olundu. Bu işğala son qoyulması minlərlə qəhrəman övladlarimizin qanı bahasına başa gəldi. Bu gün hər bir səhidlərimizin xatirəsi xalqimiz tərəfindən əziz tutulur və əbədiləşdirilir.




Tədbirdə şairə Gulamayıl Muradın Agstafa şəhidlərinə həsr olunmuş "Vətən uğrunda" kitabı şəhid ailələrinə təqdim olundu. Vətən Müharibəsinin Qəhrəmanı şəhid Azər Yusiflinin atası Nazim Yusifli və şəhid İbrahim Cəfərovun atası Şamil Cəfərov çıxışlar edərək şəhidlərimizin xatirəsinə göstərilən diqqət və qayğıya görə xalqımıza və dövlətimizə şəhid ailələri adından minnətdarlıq etdilər.



# Şəhidlər kompleksi ziyarət olundu

Rayon Mədəniyyət Şöbəsinin işçiləri son vaxtlar rayonda keçirilən ictimai tədbirlərdə fəal iştirak edir və yüksək səviyyədə keçirilən tədbirlərdə çıxış edərək öz münasibətlərini bildirirlər. İkinci Qarabağ müharibəsində qəhrəman əsgərlərin 44 günlük müharibədə göstərdikləri qəhrəmanlıqlar mədəniyyət şöbəsinin keçirdiyi tədbirlərdə ətraflı təhlil olunur, şəhidlərin, qazilərin göstərdikləri igidliklərdən geniş söhbət açılır. Bu tədbirlərdə Ağstafa Dövlət Rəsm Qalereyasının əməkdaşları da yaxından iştirak edirlər. Qalereyanın əməkdaşlarının bu günlər keçirdikləri tədbir bu mövzuya həsr olunmuş, şəhidlər yad edilmişlər. Qalereyanın işçiləri Vətən müharibəsi şəhidlərinin Qırılı kəndində adlarına inşa olunmuş abidə kompleksini və ehsan bulağını ziyarət etmişlər. Onlar ilk öncə şəhidlərimizin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad etmiş, sonra kənd sakinləri ilə görüşmüş və Qırılı kəndinin şəhid ailələrinin üzvləri ilə söhbət aparmışlar. Maraqlı keçən tədbir kənd sakinləri tərəfindən rəğbətlə qarşılanmışdır.

# M.Y.Mikayılov



Mikayıl Yolçu oğlu Mikayılov 65 yaşında vəfat etmişdir.

M. Mikayılov 1956-cı ildə Qarayazı qəsəbəsində fəhlə ailəsində anadan olmuşdur. O, 1973-cü ildə həmin kənddə orta məktəbi bitirdikdən sonra Qarayazı Vəhşi Heyvanlar Sovxozunda fəhlə kimi əmək fəaliyyətinə başlamışdır. 1977-ci ildə hərbi xidməti borcunu yerinə yetirən M.Mikayılov yenə də həmin sovxozda əmək fəaliyyətini davam etdirmişdi. O, işlədiyi dövrdə qiyabi yolla təhsil almış və Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitunu bitirmişdir. Gənc mütəxəssis M.Mikayılov 1999-cu ilə qədər sovxozda fasiləsiz olaraq briqadir, ferma müdiri, sovxoz direktoru, Kənd Aqrar İstehsalat Komissiyasının sədri vəzifələrində çalışmışdır.

M.Mikayılovun iş qabiliyyəti ictimaiyyət arasındakı hörməti, nüfuzu nəzərə alınaraq ona 2000-ci ildə daha yüksək etimad göstərilmiş və qəsəbə bələdiyyəsinə sədr seçilmişdir. 2004-cü ildə isə o, Ağstafa rayon İcra Hakimiyyəti Başçısının sərəncamı ilə Qarayazı Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə nümayəndə təyin olunmuşdur. 2021-ci ilin aprel ayına kimi həmin vəzifədə işləyən M.Mikayılov qeyd olunan tarixdə təqaüdə çıxmışdır. O, bu il noyabr ayının 30-da 65 yaşında ürək çatışmazlığından vəfat etmiş və son mənzilə yola salınmışdır.

**Allah rəhmət eləsin!**

**Seymur Orucov, Müşfiq Hüseynov, Anar Cəfərov, Mirzə Kərimov, Natiq Abbasov, Vüqar Xəlilov, Lalə Eyyubova, İlqar Hacıyev, Şahhüseyn Qurbanov, İbrahim Əliyev, Etibar Hacıyev, Nəsib Hacıyev**

# "Zəfər Günü" intellektual yarışın qalibləri mükafatlandırıldı



Noyabrın 18-də Ağstafa Rayon Təhsil Şöbəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin şagirdləri arasında keçirilən "Zəfər Günü" intellektual yarışın qalibləri mükafatlandırılıb.

Üç mərhələdən irarət olan yarışda Dağ Kəsəmən kənd 2 nömrəli tam orta məktəbin komandası I yerə, Həsənsu kənd tam orta məktəbin komandası II yerə, Aşağı Göycəli kənd tam orta məktəbin komandası III yerə layiq görülüb.

Qalib komandalar diplom və kuboklarla təltif ediliblər.

İntellektual yarış Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi, Ağstafa Rayon Təhsil Şöbəsi ilə Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib.

# Onlar bizim gələcəyimizdir



Hamı yaxşı bilir ki, dövlət başçımızın qarşısında duran ən mühüm vəzifələrdən biri və ən başlıcası gələcəyimiz olan uşaqların sağlam və gümrah böyüməsini təmin etməkdir. Son illər ölkəmizin hər yerində olduğu kimi, doğma Ağstafamızda da yeni uşaq bağçaları-körpələr evlərinin inşa olunmasına, həmin müəssisələrdə lazımi şəraitin yaradılmasına göstərilən diqqət və qayğı bunu aydın göstərir.

Şəhərimizin ən nümunəvi uşaq tərbiyə müəssisələrindən biri olan 2 saylı uşaq bağçası-körpələr evində hər cür şərait yaradılmışdır. Burada işləyən tərbiyəçilər həmişə çalışmışlar ki, uşaqlar hərtərəfli qayğı ilə əhatə olunsunlar və valideynlər onlardan razı qalsınlar.

Bu gun dünyada mövcud olan pandemiyanın yaratdığı problemlə burada da üzləşmək olur. Belə ki, pandemiya ilə əlaqədar bağçaya gələn uşaqların sayı bir qədər azalmışdır. Hazırda hər gün bağçaya 40-45 uşaq gəlir ki, bunu hazırkı vəziyyətdə yetərli davamiyyət hesab etmək olar.

Qarşıdan yeni il gəlir. Tərbiyəçi müəllimlər Simuzər Musayeva, Sultan Vəliyeva, Ceyran Məmmədova uşaqların tərbiyəsi ilə məşğul olmaqla yanaşı, onların yeni ili xoş əhval-ruhiyyə ilə qarşılamaları üçün tədbirlər görürlər. Bu gün ölkəmizdəki xoş əhval-ruhiyyə onu göstərir ki, həmişə olduğu kimi uşaqlar 2022-ci ili də böyük sevinclə qarşılayacaqlar.

Qarşıdan gələn Yeni iliniz mübarək, əziz balalar!

***İ. Əliyev***



## Azərbaycan əsgəri

Zirvəyə qalxaraq qartala döndü,
Şuşaya qalxaraq sal-sala döndü,
Dığalar uladı çaqqala döndü,
Qovdu qaranlığı,açdı səhəri-
Ər oğlu ər Azərbaycan əsgəri.

Döyüş meydanında aslana döndü,
Qıy vurdu qayada tərlana döndü,
Düşmən istehkamı al-qana döndü,
Döyüşdə qazandı böyük zəfəri,
Ər oğlu ər Azərbaycan əsgəri.

Yerdən-göydən güllə yağırdı sansız,
Düşməni torpağa sərirdi cansız,
Yağılar qaçırdı əli silahsız,
Onlara çəkdirdi qəmi-kədəri,
Ər oğlu ər Azərbaycan əsgəri.

Rəşadət göstərdi adı-sanıyla,
Mərdanə dayandı qorxmaz adıyla,
Torpağı suvardı hayın qanıyla,
Düşmənin belinə qoydu yəhəri-
Ər oğlu ər Azərbaycan əsgəri.

İntiqam eşqinə dolu ordumuz,
Ermənini gora saldı ordumuz,
Qarabağı geri aldı ordumuz,
Tarixi qələbə çaldı ordumuz,
Bəşərə göstərdi döyüş hünəri-
Ər oğlu ər Azərbaycan əsgəri.

***Nəriman Mehdixanlı***

## Haqqı, ədaləti bərpa etimişik

Namərd düşmən bürünsə də min dona,
Otuz illik işğal yetişdi sona,
Sevinc içindədi ağlayan ana,
Müdriklər getdiyi yolla gedirik,
Haqqı, ədaləti bərpa edirik!

Nə qədər humanist addımlar atdıq,
Harın-yırtıcıya insantək baxdıq,
Axır ki, hünərlə bu günə çatdıq,
Dünya görür-doğru yolla gedirik,
Haqqı, ədaləti bərpa edirik!

Bir-bir azad oldu şəhərlər, kəndlər,
Geri qaytarılır bərələr, bəndlər,
Düşməndən alındı çox qənimətlər,
Bilirik ki, doğru yolla gedirik,
Haqqı, ədaləti bərpa edirik!

Döyüş meydanından qaçdı dığalar,
Fitnəylə çox oyun açdı qarğalar,
Mülki əhalidən hayıf alırlar,
Bir ki, doğru-dürüst yolla gedirik,
Haqqı, ədaləti bərpa edirik!

Vaqif üçün qələbəmiz əyandır,
Düşmən özü bu halını duyandır.
Onsuz da Qarabağ Azərbaycandır!
Müdriklər getdiyi yolla gedirik,
Haqqı, ədaləti bərpa edirik!

***Vaqif Əli***

## Ata

Ata!-Çox vüqarlı səslənir bu ad,
Həyatda həmişə borcluyam sana,
Əbədi adını edəcəyəm yad,
Qurbanam ağaran o saçlarına.

Sən mənim Tanrıdan müqəddəs payım,
Yerdə yaradanım, canda canımsan,
Sonsuz asimanda günəşim, ayım,
Göylərdə parlayan dan ulduzumsan.

Ramazan ayının Qədr günündə,
Tanrıma yalvardım səhərə kimi,
Sən atamı qoru dünya üzündə,
Ona həmdəm elə mənim qəlbimi .

Bilirəm, hər kəsin öz qisməti var
Alnında silinməz naxışı varmış,
Dünyanın gecəsi, gündüzü kimi,
Hər kəsin əbədi yoxluğu varmış.

Bilsəm ki, çox çətin yoldan gəlirsən,
Yoluna ələnib gül olaram mən,
Dəyməsin ayağın çınqıla, daşa,
Alışıb yolunda kül olaram mən

***Sevinc Nəsibova***

## Tariyel

*Azərbaycan Respublikasının xalq artisti Tariyel Qasımova*

O bir fədaidir sənət yolunda,
Baba sağındadır, Sabir solunda
Bir elin qüdrəti vardır qolunda.
Heç zaman unutmaz ülfəti Tariyel.

Xalq artisti adı zəhmət çələngi,
Necə ki, yaşadır sözü ahəngi,
Səhnədə çox gördü şiri, pələngi,
Heç zaman unutmaz ülfəti Tariyel.

Qurban, yurdumuza hər an gərəkdir,
Sağlam düşüncədir, vuran ürəkdir,
Sağlığında əbədidir, nəhəngdir,
Heç zaman unutmaz ülfəti Tariyel.

***Qurban Həmidoğlu***

## Elan

Eynallı kənd sakini Tağıyev Cahangir Abdulla oğluna məxsus, 1972-ci ildə Bakı şəhər tibb texnikumunu bitirməsi barədə diplom itidyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Rayon icra hakimiyyəti aparatının kollektivi iş yoldaşları Ziya Məmmədova,
**Qurbanəli Məmmədovun**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Ağstafa şəhər bələdiyyəsinin kollektivi keçmiş iş yoldaşları
**Qurbanəli Məmmədovun**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına başsağlığı verirlər.

Ağstafa şəhər 2 saylı tam orta məktəbin kollektivi iş yoldaşları Səbinə Məmmədovaya, atası
**Qurbanəli Məmmədovun**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına başsağlığı verirlər.

İbrahim Əliyev, Firdovsi Heydərli, Vaqif Qasımov, Vidadi Həsənov, Nakir Quliyev, Vaqif Bayramov, Qılman Qəhrəmanlı, yaxın dostları, DİİXİ Həmkarlar İttifaqı rayon komitəsinin sədri Aydın Hacıyevə, anası
**Zəhra xanımın**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

İbrahim Əliyev, Firdovsi Heydərli, Vaqif Qasımov, Nakir Quliyev, Fərhad Hüseynov, Qurban Həmidoğlu, Nəriman Mehdixanlı, Vaqif Əli, yaxın dostları
**Rasim Rəhimovun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

Firdovsi Heydərli, Nəriman Mehdixanlı, Q. Qurbanov, V. Həsənov, V. Qasımov, Q. Həmidoğlu, V. Bayramov, Q. Qəhrəmanlı, T. Hüseynov, yaxın yoldaşları Nakir Quliyevə, bacısı
**Tamella xanımın**
vəfatından kədərləndiklərini bildirir də dərin hüznlə başsağlığı verirlər.

Ağstafa şəhər 2 saylı tam orta məktəbin kollektivi iş yoldaşları, Əməkdar müəllim Sevda Əliyevaya, atası
**Fərhad Əliyevin**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına başsağlığı verirlər.

Rayon Ağsaqqallar Şurasının üzvləri, Böyük Vətən Müharibəsi veteranları Rayon Şurasının sədri
**Fərhad Əliyevin**
vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına başsağlığı verirlər.

**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

*Redaksiya heyəti*
*L.Eyyubova, L.İsayeva, M.Zeynalov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli, Q.Qurbanov*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*